**AkademikTarih ve Düşünce Dergisi**

**Published by** https://dergipark.org.tr/tr/pub/atdd

**Autumn 2022 / 9-3** https://doi.org/10.46868/atdd.266

# XIX Əsrin Ortaları – XX Əsrin Əvvəllərində İrəvan Quberniyasında İnzibati-Ərazi Bölgüsü və Etnodemoqrafik Proseslərə Dair

**Hacı Həsənov***
**ORCID: 0000-0002-3663-6364**

**Öz**

Mövcud məqalədə müəllif, müxtəlif mötəbər qaynaqların, o cümlədən çoxsaylı statistik topluların, habelə mövcud tarixşünaslıq ədəbiyyatının məlumatları əsasında İrəvan quberniyasının yaradılması, nəzərdən keçirilən dövrdə onun inzibati-ərazi təkamülünün tarixi üzrə müxtəlif məsələləri nəzərdən keçirir. Gətirilən çoxsaylı arxiv və digər sənədlər və materiallar əsasında inandırıcı surətdə sübut olunur ki, inzibati idarəçilik sahəsində rəsmi çarizm siyasəti İrəvan quberniyasında da sırf müstəmləkəçi xarakter daşıyırdı. İstər quberniya, istərsə də qəza idarələrində bütün məmur heyəti faktiki olaraq tamamilə xristianlardan – ruslardan, ermənilərdən, gürcülərdən və b.-dan komplektləşdirilirdi. Tədqiqatlarla sübut olunmuşdur ki, çar hakimiyyət orqanları tərəfindən xristian əhalisinin Osmanlı və Qacar imperiyalarından Şimali Azərbaycana kütləvi köçürmələrinin həyata keçirilməsi nəticəsində İrəvan quberniyasında da yerli, aborigen türk əhalisinin xüsusi çəkisi tədricən azalır, əksinə, xristian əhalisinin, ilk növbədə də erməni əhalisinin xüsusi çəkisi qarşısıalınmaz şəkildə artırdı. Və bu da hər bir vəchlə özünün Osmanlı və Qacar imperiyaları ilə yeni cənub sərhədləri boyunca “sanitar kordonu” yaratmağa, habelə bu, demək olar ki, sırf müsəlman bölgəsində özünə etnik dayaqlar yaratmağa çalışan çar hökumətinin müstəmləkəçi niyyətləri ilə bağlı idi. Aparılmış tədqiqatlar göstərir ki (bunu da etiraf etmək lazımdır ki), bu sahədə çar hökuməti mühüm nəticələr əldə etmişdi.

**Açar sözlər:** Azərbaycan, İrəvan, Quberniya, Qəza, Köçürmə, Demoqrafiya, Müstəmləkə Ucqarı

**Gönderme Tarihi: 30/12/2021** **Kabul Tarihi:30/06/2022**

---

* *Doç. Dr., Azərbaycan Respublikası, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı- Azərbaycan , hacihasanov@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
HƏSƏNOV, H., “XIX Əsrin Ortaları – XX Əsrin Əvvəllərində İrəvan Quberniyasında İnzibati-Ərazi Bölgüsü və Etnodemoqrafik Proseslərə Dair”, *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s. 946-963.

# On the administrative-territorial division and ethno-demographic processes in the Irevan province in the middle of the XIX - early XX centuries

**Haci Həsənov***
**ORCID: 0000-0002-3663-6364**

**Abstarct**

In this article, the author considers the history of its administrative-territorial evolution during the assessment of the foundation of the Irevan province based on various topics, various authoritative sources, including numerous statistical collections, and available historical literature. Based on large numbers of archives, other documents and materials, it is convincingly proven that the official tsarist policy in the field of administrative administration was also purely colonial in the Irevan province. Whether in the governorship or district governorship, almost all staff consisted of Christians - Russians, Armenians, Georgians, etc. As a result of the mass migration of the Christian population from the Ottoman and Qajar empires to Northern Azerbaijan by the tsarist authorities, the share of the local, native Turkish public in the Irevan province gradually decreased, on the contrary, the share of the Christian population, especially the Armenians, increased irresistibly. It was due to the colonial intentions of the tsarist government, which sought to establish a "sanitary cordon" along its new southern borders with their empire, to inflict ethnic beatings on itself in Muslim areas. Research shows that the tsarist government achieved possible results in this area (which, unfortunately, must be admitted).

**Keywords:** Azerbaijan, Irevan, Province, District, Resettlement, Demography, Colony, Remote

**Received Date: 30/12/2021** **Accepted Date: 30/06/2022**

---

* *Associate Professor, Republic of Azerbaijan, Institute of History named after A.A. Bakikhanov, Azerbaijan National Academy of Sciences, Baku-Azerbaijan, hacihasanov@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
HƏSƏNOV, H., "XIX Əsrin Ortaları – XX Əsrin Əvvəllərində İrəvan Quberniyasında İnzibati-Ərazi Bölgüsü və Etnodemoqrafik Proseslərə Dair", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s. 946-963.

# К административно-территориальному разделению и этнодемографическим процессам в Иреванской губернии в серединеXIX – начале XX вв.

**Гаджи Гасанов***
**ORCID: 0000-0002-3663-6364**

**Резюме**

В настоящей статье автор по сведениям различных достоверных источников, в том числе многочисленных статистических сборников, а также существующей исторической литературы, рассматривает различные вопросы по истории создания Иреванской губернии, ее территориально-административную эволюцию в рассматриваемый период. На основе приведенных многочисленных архивных и других документов и материалов убедительным образом доказывается, что вся официальная царская политика в области административного управления и в Иреванской губернии, носила сугубо колониальный характер. Практически весь состав как губернских, так и уездных ведомств полностьюкомплектовался христианами-русскими, армянами, грузинами и др.Исследованием доказано, что в результате проведенных царскими властями массовых переселений христианского населения из османской и каджарских империй в Северный Азербайджан и в Иреванскую губернию удельный вес местного, аборигенного тюркского населения постепенно сократился, наоборот христианского – в первую очередь армянского, – населения неудержанно увеличивался. И это было непосредственно связано с колонизаторскими намерениями царских властей, которые всячески старались создать «санитарный кордон» вдоль своих новых южных границ с османской и каджаровской империями, а также этнической опоры для себя в этом почти полностью мусульманском регионе. Проведенные исследования доказывают, что, и надо это признать, царские власти в этой области добились значительных результатов.

**Ключевые слова:** Азербайджан, Иреван, губерния, уезд, переселения, демография, колониальная окраина.

**Получено: 30/12/2022** **Принято: 30/06/2022**

---

**Доцент, Азербайджанская Республика, Институт Истории им. А.А. Бакиханов, Национальная академия наук Азербайджана, Баку-Азербайджан, hacihasanov@mail.ru*

***Ссылка на статью:***
HƏSƏNOV, H., "XIX Əsrin Ortaları – XX Əsrin Əvvəllərində İrəvan Quberniyasında İnzibati-Ərazi Bölgüsü və Etnodemoqrafik Proseslərə Dair", *академическая история и мысль*, T. 9, NO. 3, 2022, c. 946-963.

## Giriş

Məlumdur ki, 1840-cı ildə romanovlar Rusiyası heç bir vəchlə "sakitləşdirə" bilmədiyi Cənubi Qafqazda, o cümlədən də QuzeyAzərbaycanda yeni inzibati-ərazi və məhkəmə islahatları həyata keçirmişdi. Bu islahatların çərçivəsində hələ Rusiya işğalının gedişində yaradılmağa başlamış komendant üsul idarəsi, əyalətlərə və dairələrə bölgü ləğv edildi, Cənubi Qafqazda da Ümumrusiya inzibati-ərazi idarəçiliyinin tətbiq edilməsinə başlanıldı. 1828-ci ildə əzəli Azərbaycan torpaqlarında – keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış süni qurum, "Erməni vilayəti" adlandırılmış inzibati-ərazi vahidi ləğv olundu və bu torpaqlar yeni yaradılan Gürcüstan-İmeretiya quberniyasının tərkibinə, Quzey Azərbaycanın digər ərazilərinin əksəriyyəti isə Xəzər vilayətinin tərkibinə daxil edildi. 1844-cü ildə Qafqazda yaradılmış ilk canişinliyin rəhbəri M.S.Voronsovun təklifi ilə 1846-cı ildə Cənubi Qafqaz 4 quberniyaya-Tiflis, Kutaisi, Şamaxı (1859-cu il Şamaxı zəlzələsindən sonra Bakı) və Dərbənd quberniyalarına bölündü. İrəvan və Naxçıvan torpaqlarımız bu dəfə Tiflis quberniyasının tərkibinə qatıldı. Bu da diyarda tez-tez aparılan inzibati-ərazi dəyişikliklərinin sonuncusu olmadı. 1849-cu ildə yeni – İrəvan quberniyası, 1868-ci ildə isə Yelisavetpol (Gəncə) quberniyası təşkil edildi.

Rusiya imperatoru I Nikolayın (1825-1855) 1849-cu il iyunun 9-da Senata ünvanlandığı, iyunun 28-də nəşr olunan "Zaqafqaziya (Cənubi Qafqaz – H.H.) diyarında Erivan (İrəvan – H.H.) quberniyasının təşkil edilməsi barəsində" adlı fərmanında deyilirdi: "Bizim 1846-cı il dekabrın 14-cü günü təsdiq etdiyimiz əsasnamə ilə Zaqafqaziya diyarı 4 quberniyaya – Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölünübdür. İndi, Qafqaz Canişininin Qafqaz Komitəsi tərəfindən baxılmış təqdimatı nəzərə alınmaqla, işlərin uğurlu getməsi və rahat idarəçilik üçün Zaqafqaziya diyarında daha bir yeni quberniya yaradılmasını faydalı və zəruri sayaraq Biz hökm edirik: 1) Bu yeni yaradılan quberniyanın tərkibinə ayrılsın: Tiflis quberniyasından, İrəvan, Naxçıvan və Ahalkələk sahəsi çıxılmaqla Aleksandropol qəzaları, Şamaxı quberniyasından isə Şuşa qəzasının Mihri (Mehri – H.H.) sahəsi və Kapak (Qapan? – H.H.) kəndi. 2) İrəvan quberniya şəhəri (mərkəzi – H.H.) təyin olunsun, buna görə də yeni quberniya İrəvan quberniyası adlandırılsın. 3) Onu (İrəvan quberniyasını – H.H.) 5 qəzaya bölmək: a) İrəvan qəzası; bunu (Göyçə sahəsi çıxılmaqla – H.H.) indiki İrəvan qəzasından təşkil etmək; İrəvanı qəza səhəri (mərkəzi – H.H.) kimi saxlamaq; b) Novo-Bəyazid (Yeni Bəyazid – H.H.) qəzası yenə Göyçə sahəsi və ümumiyyətlə

Göyçə gölü ətrafındakı bütün kəndlərdən təşkil olunan Novobəyazid qəzası; Kovar (Kəvər – H.H.) kəndini qəza idarəsinin yerləşdiyi məkan təyin edib onu Novobəyazid adında qəza şəhəri dərəcəsinə yüksəltmək; b) İndiki Naxçıvan qəzasının Ordubad sahəsi çıxılmaqda [qalan] sahələrindən Naxçıvan qəzası təşkil etmək; Naxçıvanı qəza səhəri kimi saxlamaq; c) Naxçıvan qəzasının Ordubad sahəsi və Şuşa qəzasının Kapan (Qapan – H.H.) kəndi ilə birlikdə Mehri sahəsindən təşkil olunan Ordubad qəzası; bu yeni qəzanın idarəçiliyi qəza səhəri dərəcəsinə yüksəldilən əyalət səhəri (sənəddə "заштатный" – H.H.) Ordubadda yerləşir və d) Elə indiki Aleksandropol qəzasının Şuragəl (Şörəyel – H.H.) və Bombak (Pəmbək – H.H.) sahələrindən təşkil olunan Aleksandropol qəzası; qəza səhəri əvvəlkitək Aleksandropol səhəri olsun. 4) İrəvan, Naxçıvan və Aleksandropol qəzalarında indiki sahə bölgüsü saxlanılsın. Novo-Bəyazid və Ordubad qəzalarının vaxtı çatanadək (sənəddə "впредь до времени" – H.H.) sahələrə bölünəcək. 5) İrəvan quberniyasının idarə olunmasını Kutaisi quberniyasının idarəsinin təşkil olunduğu, Bizim tərəfimizdən 1846-cı il dekabrın 14-cü günü təsdiq edilmiş əsasnamənin (20702) əsasında təşkil eləmək. Bizim təsdiq etdiyimiz ştatlardan ibarət olsun və 6) hal-hazırda Aleksandropol qəzasının tərkibində olan Ahalkələk sahəsi Kutaisi quberniyasının Ahalsıx qəzasına sayılsın (verilsin – H.H.)."[1]

İmperator I Nikolayın 1849-cu il iyunun 9-da imzaladığı fərmana əlavə edilmiş ştat cədvəlinə görə,[2] İrəvan quberniyasının idarə olunması üçün 126 dövlət məmuru ştatı nəzərdə tutulmuşdur. Buraya illik məvacibi və yemək haqqı 5000 rubl olan qubernator və 2600 rubl olan vitse-qubernatordan tutmuş illik gəliri cəmi 100 rubl olan mirzəyə qədər müxtəlif məmurlar daxil idi.

Hər il quberniya məmurlar korpusunun saxlanılmasına sərf olunacaq 92815 rublluq vəsaitin 88360 rublunun dövlət xəzinəsindən ayrılması, 3200 rublunun zemstvo rüsumlarından (əslində yerlərdə toplanılacaq vergilərdən – H.H.) və 1255 rublunun şəhər gəlirlərindən əldə edilməsi nəzərdə tutulurdu.

Beş qəza rəisinin (İrəvan, Naxçıvan, Ordubad, Novobəyazid və Aleksandropol hər birinə ildə 1300-1500, İrəvan (4), Naxçıvan (2) və Aleksandropol (2) qəzalarında yaradılacaq 8 polis sahələrinin rəislərinin hər birinə ildə 880 rubl məvacib verilməsi nəzərdə tutulurdu.

"Qafqaz təqvimini"nin 1851-ci ilə olan buraxılışının məlumatlarına görə, "İrəvan quberniyasının qəzaları – 1828-ci ildən 1840-cı ilədək ərazilərində Erməni vilayətinin yerləşdiyi bütün Cənubi Qafqaz diyarının ən məhsuldar hissələrindən birini təşkil edir və

[1] *Polnoye Sobraniye Zakonov Rossiyskoy Imperii (PSZRI)*, Sobraniye vtoroye, t. XXIV, otdeleniye pervoye. 1849, ot №22881-23429, v tipografii otdeleniya sobstvennoy Ye.I.V. Kantselyarii, Sankt-Peterburg 1850, dok. №23303, s.311-312.
[2] *PSZRI*, otdeleniye II, ot №23480-23786, dok. №-23303, s.140.

Türkiyə ilə 230 verst,* İran tərəfdən isə (qaynağın stili saxlanılmışdır – H.H.) 250 verst sərhədə malikdir. Onların (qəzaların – H.H.) sərhədlərinin ümumu uzunluğu 900 verst, səthinin ərazisi 24000 kv. verstdir; dərə-təpəliyi də bu sahənin dörddən biri kimi buraya əlavə etsək bu qəzaları həqiqi ərazisi 30000 kv verstdir.Bu ərazidən 1200 kv. versti göllərin, 500-ü çaylar, kanallar və su kəmərləri (yəqin ki, arxlar və kəhrizlər nəzərdə tutulur – H.H.), 500-ü bataqlıqların, 200-ü yolların, 1000 kv. versti isə şəhərlərin, kəndlərin, qışlaqların və s., 250 kv. versti isə qəbiristanlıqların altındadır".[3] Quberniyaya mülki işləri də idarə edən hərbi qubernator (general-mayor İ.İ.Nazarov) başçılıq edirdi. Onun bir nəfər yavəri, 3 nəfər xüsusi tapşırıqlar üzrə məmurları vardı.

Vitse-qubernator, 2 müşavir, katib, mühasib, rus əhalisi üzrə müvəqqəti xüsusi tapşırıqlar məmuru, quberniya yerölçəni, arxitektoru və katibindən ibarət olan quberniya idarəsinin sədri də qubernator idi.[4] Saray müşaviri, knyaz Q.K.Baqration-Muxranskinin sədrlik etdiyi quberniya məhkəməsinin tərkibində quberniyanın ilk üç müsəlman məmurunun adına rast gəlinir. Bunlar quberniya müsəlman zadəgan silkini təmsil edən Nəzərəli bəy Sultanəsəd bəy oğlu və tacir silkindən olan Molla Tağı Qurban oğlu və Ağamirzəli Abutalıb oğlu idi.[5] Məhkəmənin sədri həm də İrəvan qəzasının rəisi idi. Bu qəza 4 sahəyə – Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələrinə bölünmüşdür ki, onların da hamısını rus məmurları idarə edirdilər. Yeni ağaların "Məhəmmədi ruhani şəriəti" adlandırılan müsəlman məhkəməsinə şeyxülislam Axund Molla Həsən sədrlik edirdi. Məhkəmənin 6 nəfər üzvü-qazisi vardı.[6] İrəvan şəhəri 2 polis pristavı tərəfindən nəzarətdə saxlanılırdı. Qəza idarəsinə həmçinin, mühasib və İrəvan duz maqazinin pristavı da daxil idi.

Aleksandropol qəzası 2 sahəyə – Şörəyel və Pəmbək sahələrinə bölünürdü. Naxçıvan qəzasında da 2 sahə (Naxçıvan və Dərələyəz) var idi. Şəhərin özünə isə qalabəyi (qradonaçalnik) nəzarət edirdi.

Ordubad və Novobəyazid qəzaları hələlik sahələrə bölünməmişdi. Sonuncu qəzada Qulp duz mədəni üzrə ayrıca rəis var idi.[7] Quberniya idarəsinin sədri də hərbi qubernator idi. Onunla yanaşı bu idarəyə vitse-qubernator (saray müşaviri N.V.Blavatski), 2 müsavatı, katib (N.D.Strelbitski; bu şəxs sonradan quberniya və Cənubi Qafqaz diyarı haqqında maraqlı materialların müəllifi kimi çıxış etmişdir; bu familiyadan olan daha bir nəfər İrəvan

---

*1 verst=500 sajen=1066,781 metr.

[3] K. Orlovskiy, *Statisticheskiy ocherk chetyrokh uyezdov Erivanskoy gubernii, byvshey Armyanskoy oblasti, preimushchestvenno v khozyaystvennom otnoshenii*, Kavkazskiy kalendar' na 1851 god. Tiflis 1850, otd. IV, s.7.

[4] K. Orlovskiy, *a.g.e.,* otd. V, s. 18.

[5] K. Orlovskiy, *a.g.e.,* otd. V, s. 18.

[6] K. Orlovskiy, *a.g.e.,* otd. V, s. 18-19.

[7] K. Orlovskiy, *a.g.e.,* otd. V, s. 19.

quberniyasında sonuncu çar qubernatoru olmuşdur – H.H.), mühasib, rus əhalisi üzrə müvəqqəti xüsusi tapşırıqlar məmuru, quberniya torpaqölçəni, quberniya memarı, quberniya katibi daxil idi. Qeyd edək ki, yuxarıda sadalanan çoxsaylı məmurların içərisində bir nəfər də olsun müsəlman yox idi.[8] Quberniya məhkəməsinə də qeyri-müsəlman – yenə də saray müşaviri knyaz Q.K.Baqration-Muxranski sədrlik edirdi. Zadəgan təbəqəsini bu məhkəmədə erməni K.İ.Məlikağalarov və Nəzərli Sultan Əsəd bəy oğlu təmsil edirdilər. Tacir təbəqəsindən daha 2 nəfər azərbaycanlı – Molla Tağı Qurban oğlu və Ağamirzəli Abutalıb oğlu – bu məhkəmənin iclasçıları sırasında idilər.[9] Yuxarıda adını çəkilən Q.K.Baqration-Muxranski həm də İrəvan qəzasının rəisi idi.

Quberniya müsəlman şəriət məhkəməsinintərkibində hələlikheç bir dəyişiklik olmamışdı.[10] İrəvan şəhərində ictimai-asayişə şəhər polisi nəzarət edirdi. Bu idarəyə polismeyster başçılıq edirdi. İdarədə həmçinin 2 nəfər pristav (Kartaşev və Kumuikov), mühasib daxil idilər.[11] Qəza xəzinədarı vəzifəsini icra edən məmur da erməni idi. Qəza idarəsinin statusda həmçinin İrəvan duz mağazasının pristavı da var idi.[12] Naxçıvan qəzası Naxçıvan və Dərələyəz sahələrinə bölünmüşdü. Naxçıvan polisinə qradonaçalnik başçılıq edirdi. Ordubad və Novobəyazid qəzaları sahələrə bölünməmişdi. Ancaq Qulp duz mədənlərə üzrə ayrıca rəis ştatı təsbit edilmişdi.[13] Çar hakimiyyət orqanları bu yeni yaradılmış quberniyaya böyük diqqətlə yanaşırdı. Bu, həm quberniyanın tutduğu hərbi-siyasi əhəmiyyətli strateji mövqeyi, həm də onun təbii zənginlikləri ilə bağlı idi.[14] 1854-cü ilin məlumatlarına görə, İrəvan quberniyasına hələ də hərbi və mülki işlər üzrə qubernator general-mayor İ.İ.Nazarov rəhbərlik edirdi.[15] Onun yaxın ətrafı – baş yavər və – xüsusi tapşırıqlar məmurlarından ibarət idi. Bunların içərisində böyük məmurlar –Bux və Kəlbalı xan Ehsan xan oğlu var idi.

Quberniya idarəsi – sədr (hərbi qubernator), vitse-qubernator, 2 müşavir, 2 katib mühasib, torpaqölçən, arxitektor, quberniya məhkəməsi sədri, 2 müşavir, 1 erməni və 1 müsəlman zadəgan nümayəndəsi, 2 katib, quberniya prokuroru, prokuror mirzəsindən ibarət idi.

İrəvan qəza idarəsinə – qəza rəisi, onun köməkçisi və katib daxil idi. Bu qəza yenə də 4 sahəyə bölünürdü – Zəngibasar, Sərdarabad, Şərur, Sürməli sahələri. Sahə rəisləri də qəza

8 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 18.
9 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 18.
10 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 19.
11 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 19.
12 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 19.
13 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 19.
14 K. Orlovskiy, *a.g.e.*, otd. V, s .7.
15 K. Orlovskiy, *a.g.e.*, otd. V, s. 635.

idarəsinin üzvləri idi.

Müsəlman ruhani şəriəti sədr -şeyxülislam Əkbər ağa Axund Molla Mehdi Hacı Molla Mustafa oğlu və 4 üzvdən ibarət idi.

Quberniya artıq beş qəzaya – İrəvan, Aleksandropol, Naxçivan, Ordubad, Novobəyazid qəzalarına bölünürdü. İrəvan qəzası 4, Aleksandropol qəzası 2 sahə, Naxçıvan qəzası 2 sahəyə bölünürdü. Ordubad və Novobəyazid qəzaları hələ də sahələrə bölünmürdü.

1861-ci ilin məlumatına görə, İrəvan quberniyası artıq 6 qəzadan ibarət idi.[16] Quberniyaya hərbi qubernator, həm də mülki işlərə də rəhbərlik edən general-mayor Osip Antonovic Şerbov-Nefedoviç başçılıq edirdi. Onun iki nəfər xüsusi tapşırıqlar məmuru var idi ki, onlardan biri erməni idi. Quberniya idarəsinə o sədrlik edirdi. Bu idarənin tərkibinə vitse-qubernator, iki müşavir (gürcü və rus), iki erməni katib, quberniya və eyniadlı qəzanın torpaqölçənləri, quberniya memarı və meşəbəyisi daxil idi.

Quberniya məhkəməsinin sədrdən başqa 2 nəfər (biri erməni idi) müşaviri, zadəganlar təbəqəsindən bir nəfər azərbaycanlı (Əli xan Fətulla xan oğlu) və bir nəfər erməni iclasçısı, iki katibi var idi. Quberniya prokuroru da bu məhkəmənin üzvü idi.

"Məhəmmədi ruhani şəriəti" adlandırılan müsəlman məhkəməsinə şeyxülislam Əkbər ağa Axund Molla Məhəmməd oğlu sədrlik edirdi. Onun qazi adlandırılan üç axund üzvü var idi.

Qəzalara qəza rəisləri başçılıq edirdilər, onları hər birinin 1 və ya 2 köməkçisi olurdu. İrəvan qəzasında rəis və onun hər iki köməkçisi erməni olduğu halda, hətta sırf müsəlman qəzalarında bir nəfər də olsa rəis, köməkçi qalabəyi (polismeyster), heç pristav belə yox idi.

1868-ci ilin məlumatlarına görə,[17] İrəvan quberniyasında qubernator vəzifəsi boş idi. Quberniya idarəsinin tərkibinə iş icraçısı, dövlət əmlakı idarəsinin rəhbəri əlavə olunmuşdu. İrəvan şəhərinə polis nəzarəti polismeyster və 2 pristav tərəfindən həyata keçirilirdi. Quberniyanın 6 qəzasının rəisləri içərisində bir nəfər də müsəlman yox idi.

Sədr və 4 nəfər üzvdən ibarət İrəvan dairə məhkəməsinin də tərkibi ancaq xristianlardan ibarət idi.[18] Quberniya ərazisində üç barışıq şöbəsi yaradılmışdır. Barışıq hakimlərinin rəhbərlik etdiklərinə bu şöbələrdə hakim köməkçiləri, katib və katib köməkçiləri var idi.

1. İrəvan qəzası üzrə barışıq şöbəsi.

2. Eçmiədzin barışıq hakimi Parimski.

---

[16] *Kavkazskiy kalendar' na 1862 god.* Tiflis, izdannyy pri Glavnom Upravlenii Namestnika Kavkazskogo. XVII god, Tiflis Tipografiya, Glav.Upr., Nam. Kav., Tiflis 1861, s. 344-345.
[17] *Kavkazskiy kalendar' na 1869 god,* Tiflis 1868, adres-kalendar, s. 39-40.
[18] *Kavkazskiy kalendar' na 1869 god,* Tiflis 1868, adres-kalendar, s.40.

3. Naxçıvan barışıq hakimi – Yegiazarov.[19]

1872-ci ildə İrəvan quberniyasında 7 qəza, 5 şəhər, 1283 yaşayış məntəqəsi var idi. Bu quberniya Cənubi Qafqazın mərkəzində, $41^{0}7^{1}$ və $38^{0}52^{1}$ şimal və dairəsi, $60^{0}54^{1}$ şərq uzunluğu arasında yerləşib şimalda Tiflis və Yelisavetpol, şərqdə Yelisavetpol quberniyaları, qərbdə Qars vilayəti, cənubda "Asiya Türkiyəsinin Ərzurum vilayəti və Qacarlar səltənəti ilə həmsərhəd idi". Quberniyanın sərhədlərinin ümumi uzunluğu 1052,5 verst idi. Bundan 246,5 versti Qacarlar, 130 versti isə Osmanlı imperiyası ilə olan sərhədlərin payına düşürdü.

Quberniyanın ərazisi 24.454,4 kv. verst və ya 27830 $km^2$, əhalisi 804757 nəfər idi.Məlumdur ki, hələ XIX əsrin lap əvvəllərindən etibarən Cənubi Qafqazda geniş işğallara başlayıb bu son dərəcə mühüm strateji meqaregionda mövqelərini möhkəmləndirməyə başlayan kimi romanovlar imperiyasının burada atdıqları ilk addımlardan biri Rusiya xəzinəsinin gəlir qaynaqları ola biləcək mənbələrin - əhalinin sayının, onun təsərrüfatı və digər qazanc vasitələrini aşkara çıxarmaq, onları siyahıya almaq olmuşdur. Hələ işğalın gedişindəcə dərhal tərtib edilən adi əhali siyahıların çox tezliklə "Kameral təsvirlər" adlı siyahıyaalmalar əvəzedici və belə əhali-təsərrüfat siyahıyaalınmaları ta XIX əsrin 70-ci illərinin ortalarınadək müxtəlif fasilələrlə (5-10 illik) keçirilmişdir.

Cənubi Qafqaz üzrə indi çox müxtəlif xarakterli və məqsədli tədqiqatlar üçün qiymətli qaynaqlar rolunu oynayan bu kameral təsvirlərdən (bunlardan məlumatyüklülük baxımından ən zəngin 1842-1844-cü illərdə tərtib edilmişdir – H.H.) ən sonuncusu 1873-cü ildə həyata keçirilmişdir. XIX əsrin 80-ci illərində siyahıyaalmalar baxımından ən miqyaslı tədbir 1886-cı ilin ailə siyahılarının tərtibi,[20] 90-cı illərində isə Rusiya imperiyası əhalisinin 1897-ci il yanvarın 15-də keçirilmiş birinci ümumi əhali sayım olmuşdur.[21] Bu qaynaqlar, o cümlədən 1886-cı il ailə siyahıları həm də bütün diyar, habelə Quzey Azərbaycan, o cümlədən də əzəli türk yurdu olan İrəvan torpaqlarımızın, bu torpaqlarda XIX əsrin ortalarından XX əsrin əvvəllərinədək mövcud olmuş İrəvan quberniyasının inzibati ərazi quruluşunu öyrənmək üçün qiymətli qaynaqdır. Beləliklə, 1886-cı ilin məlumatlarına görə, hər iki cinsdən 670405 nəfərin yaşadığı bu quberniya yeddi qəzaya bölünmüşdür:

1. İrəvan; 2. Naxçıvan; 3. Şərur Dərələyəz; 4. Sürməli; 5. Aleksandropol; 6. Novobəyazid; 7.Eçmiədzin (Üçmüəzzin).

Quberniyada ümumi əhalisi 57594 nəfər olan 5 şəhər var idi.

1. İrəvan (14738 nəfər), 2. Naxçıvan (6939 nəfər), 3. Ordubad (4199 nəfər), 4.

---

[19] *Kavkazskiy kalendar' na 1869 god,* Tiflis 1868, adres-kalendar, s. 40.

[20] *Svod statisticheskikh dannykh o naselenii Zakavkazskogo kraya, izvlechennykh iz posemeynykh spiskov 1886 g. Izdan po rasporyazheniyu Glavnonachal'stvuyushchego grazhdanskuyu chastiyu na Kavkaze,* Zakavkazskim statisticheskim komitetom, Tipografiya I.Martirosantsa, Orbel.ul., d. №1,2, Tiflis 1893 B.

[21] *Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii 1897 goda*.

Aleksandropol (24230 nəfər), 5. Novobəyazid (keçmiş Kəvər) (7488 nəfər).

Qəzalar isə öz növbəsində sahələrə bölünürdü. Quberniya üzrə cəmisi 25 sahədə cəmləşmiş 149 kənd cəmiyyətində 1267 kənd var idi. Mərkəzi İrəvan şəhəri olan eyniadlı qəza 4 sahəyə bölünmüşdü, bu sahələrdə cəmi 24 kənd cəmiyyətində birləşmiş 205 kənd var idi ki, sonuncularda da 14004 kəndli həyəti və 98876 nəfər əhali qeydə alınmışdır. Tacirabad adlı 1-ci sahədə 5 kənd cəmiyyəti, 59 kənd, 2650 kəndli həyəti və 20775 nəfər əhali qeydə alınmışdır. Hacı Elyaslı adlı ikinci sahənin 5 kənd cəmiyyətində 40 kənd birləşmişdi ki, bunlarda da 3394 kəndli həyəti, 21556 nəfər kənd əhalisi siyahıya alınmışdır.

Qəmərli sahəsində isə 6 kənd cəmiyyəti var idi. Bu sahənin 48 kəndində 4048 kəndli həyatı, 25566 nəfər əhali var idi. Sonuncu – Dərəli adlı IV sahədə yaradılmış 8 kənd cəmiyyəti 58 kəndli birləşdirirdi. Bu qəzanın ən iri sahədə məskunlaşmış 3912 kəndli həyətində 30979 nəfər əhali qeydə alınmışdı. Əhalisi 24230 nəfər olan Aleksandropol şəhərinin mərkəz rolunu oynadığı eyniadlı qəza da dörd sahəyə bölündü. Ağbulaq, Cızıxlar, Xorom və Böyük Qarakilsə. Qəzadakı 27 kənd cəmiyyəti (161 kənd, 13080 həyət, 111501 nəfər əhali) bu sahələr arasında belə bölünmüşdü. 1. – Ağbulaq sahəsi – 6 kənd cəmiyyəti, 49 kənd, 3524 kəndli həyəti və 30861 nəfər əhali 2. – Çızıxlar sahəsi – 5 kənd cəmiyyəti. 43 kənd 2835 kəndli həyəti və 24195 nəfər əhali. 3. Xorom sahəsi – 5 kənd cəmiyyəti, 38 kənd, 3796 kəndli həyəti və 30642 nəfər əhali. 4. Böyük Qarakilsə sahəsi – 11 kənd cəmiyyəti, 31 kənd, 2925 kəndli həyəti, 25803 nəfər əhali. Naxçıvan qəzasında iki səhər var idi. Naxçıvan (6939 əhali) və Ordubad (4199). Mərkəzi Naxçıvan olan, əhalisinin sayı 72882 nəfərə çatan bu qəzadakı 28 kənd cəmiyyətində 169 kənd və 9918 kəndli həyəti var idi. Naxçıvan qəzası da dörd sahəyə ayrılmışdı:

1. Əliabad sahəsi (6 kənd cəmiyyəti, 34 kənd, 2939 kəndli həyəti, 18424 nəfər əhali).
2. Cəhri (4 kənd cəmiyyəti, 42 kənd, 2101 kəndli həyəti, 16506 nəfər əhali).
3. Əbrəqunis sahəsi 4 kənd cəmiyyəti, 38 kənd, 2176 (kəndli həyəti, 16655 nəfər əhali).
4. Yuxarı Əylis sahəsi (14 kənd cəmiyyəti, 55 kənd, 2702 kəndli həyəti, 21297 nəfər əhali).

Mərkəzi Novobəyazid (keçmiş Kəvər) olan eyniadlı qəzada 16 kənd icması, 128 kənd, 11976 kəndli həyəti və 96123 nəfər əhali var idi. Bu qəza da dörd sahəyə bölünmüşdü.

1. Aşağı Dərəçiçək sahəsi (8 kənd cəmiyyəti, 50 kənd, 4180 kəndli həyəti, 33844 nəfər əhali).
2. Göyçə sahəsi (3 kənd cəmiyyəti, 24 kənd, 2667 kəndli həyəti, 24901 nəfər əhali).
3. Gözəldərə sahəsi (3 kənd cəmiyyəti, 35 kənd, 3048 kəndli həyəti, 24170 nəfər əhali)

və

4. Mərzə sahəsi (2 kənd cəmiyyəti, 19 kənd, 1698 kəndli həyəti, 11088 nəfər əhali).

Bunlardan əlavə 1886-cı il siyahıyaalınması zamanı bu qəzada müvəqqəti yaşayan 383 kəndli həyəti (2120 nəfər) aşkar edilmişdir.

İrəvan quberniyasının cənubi-qərbində, Arazın sağ sahilində yerləşən, mərkəzi İğdır qəsəbəsi olan Sürməli qəzası (9 kənd cəmiyyəti 228 kənd, 9748 kəndli həyəti, 71066 nəfər əhali) isə üç sahəyə ayrılmışdı.

1. İğdır sahəsi (3 kənd cəmiyyəti, 61 kənd, 4317 kəndli həyəti, 30647 nəfər əhali).

2. Daşburun sahəsi (3 kənd cəmiyyəti, 62 kənd, 2748 kəndli həyəti, 20520 nəfər əhali).

3. Qulp sahəsi (3 kənd cəmiyyəti, 105 kənd, 2683 kəndli həyəti, 19899 nəfər əhali).

15 cəmiyyəti (161 kənd, 8435 kəndli həyəti, 61772 nəfər əhali) olan Şərur-Dərələyəz qəzası 2 sahəyə - Şərur və Dərələyəz sahələrinə ayrılmışdı. Bunların birincisində 31760 nəfər (8 kənd cəmiyyəti, 62 kənd, 4907 kəndli həyəti), ikincisində isə 30012 nəfər əhali (7 kənd cəmiyyəti, 99 kənd, 3528 kəndli həyəti) yaşayırdı. Bütövlükdə qəza üzrə 161 kənd, 8435 kəndli həyəti və 61772 nəfər əhali qeydə alınmışdı.

İrəvan Quberniyasının sonuncu – Üçmüəzzin qəzasındakı 30 kənd icması (215 kənd, 13483 kəndli həyəti, 100501 nəfər əhalisi) aşağıda adları çəkilən 4 sahə arasında belə bölünürdü:

1. Sərdarabad sahəsi (11 kənd cəmiyyəti), 97 kənd, 4104 kəndli həyəti, 32333 nəfər əhali).

2. Vaqarşapat sahəsi (9 kənd cəmiyyəti, 40 kənd, 3958 kəndli həyəti, 25513 nəfər əhali).

3. Əştərək sahəsi (6 kənd cəmiyyəti, 44 kənd, 3121 kəndli həyəti, 23279 nəfər əhali).

4. Baş Abaran sahəsi (4 kənd cəmiyyəti, 34 kənd, 2310 kəndli həyəti, 19566 nəfər əhali).

Bütövlükdə 1886-cı ildə İrəvan quberniyasının 7 qəzası 25 sahəyə bölünmüşdü. Bu sahələrdə yerləşən 149 kənd icmasında 1267 kənd, 80649 kəndli həyəti, 612811 nəfər kənd əhalisi qeydə alınmışdı. 57594 nəfərlik şəhər əhalisi ilə birlikdə quberniyada cəmi 671105 nəfər əhali yaşayırdı.

1894-cü il yanvarın 1-ə olan məlumatlara görə, bu quberniya 7 qəzaya bölünürdü. D.Y.Aramovu[22] Ermənisatn Milli Arivinin materialları əsasında apardığı hesablamalara görə, 1893-cü ildə İrəvan quberniyasında cəmi 251057 nəfər (138579 kişi və 112478 qadın)

[22] D.YU. Arapo, *Musul'manskoye naseleniye Erivanskoy gubernii v 1893 god*, Po materialam Natsional'nogo Arkhiva Armenii, Vostochnyy Arkhiv, 2007, №16, s.103-104.

müsəlman əhalisi yaşayırdı.[23]

1894-cü il yanvarın 5-də:

1. İrəvan qəzasında 33516 nəfər kişi və 26.597 nəfər qadın müsəlman vardı. Vergi verən müsəlman həyətlərinin sayı 9436 idi.

2. Novobəyazid qəzasında müsəlmanlar – 15847 kişi, 13676 qadın; 4307 vergi verən həyət.

3. Eçmiədzin qəzasında müsəlmanlar – 16371 nəfər kişi, 13832 qadın, 4923 həyət.

4. Sürməli qəzasında – 18639 kişi, 15712 qadın, 6917 həyət.

5. Aleksandropol qəzasında 2920 kişi və 2541 qadın, 1054 həyət.

6. Şərur-Dərələyəz qəzasında – 23894 kişi və 19672 qadın, 6154 həyət.

7. Naxçıvan qəzasında – 27392 kişi, 20453 qadın 7295 həyət.

Rusiya imperiyası əhalisinin 1897-ci ilin yanvarında keçirilmiş birinci ümumi siyahıyaalınmasının məlumatlarına görə, ərazisi 23.226,4 kv. verst (daxili su hövzələrinin sahəsi çıxılmaqla) olan, 829.556 nəfər əhalinin yaşadığı İrəvan quberniyası yenə də 7 qəzaya bölünürdü.

1. İrəvan qəzası (ərazisi 2664,2 kv. verst, əhalisi 150879 nəfər);

2. Aleksandropol qəzası (3303,7; 165 503);

3. Naxçıvan qəzası (3858,8; 100771);

4. Novobəyazid qəzası (4156,8; 122,573);

5. Sürməli qəzası (3241; 89055);

6. Şərur-Dərələyəz qəzası (2611,8; 76.538);

7. Eçmiədzin qəzası (3390,9; 124237).

Bu qəzaların mərkəzləri müvafiq olaraq İrəvan (29006 nəfər əhalisi var idi), Aleksandropol (30.616); Naxçıvan (8790), Novobəyazid (8486) şəhərləri və İğdır (4680), Baş Noraşen (867), Vaqaşapan – keçmiş Sərdarabad (5267) kəndləri idi. Quberniya bütövlükdə beş şəhər (yuxarıda sadalananlar və Ordubad şəhəri) var idi ki, onlarda da cəmi 92323 nəfər əhali (Bundan 4611 nəfəri Ordubad şəhərində) məskunlaşmışdı.[24]

Quberniya əhalisinin milli tərkibi aşağıdakı kimi idi.[25]

1. Azərbaycan türkləri – 313 176 nəfər (bütün quberniya əhalisinin 37,75 %);

2. Kürdlər – 49389 nəfər (5,95);

3. Aysorlar – 2862 nəfər (0,35);

---

[23] *Natsional'nyy arkhiv Armenii*, f.94, op.1, d. 2020, l.18.
[24] *Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii,* 1897, t. LXXI. Erivanskaya guberniya, Sankt-Peterburg 1905, s. 1.
[25] Yenə orada, s. 1-3.

4. Yəhudilər – 850 nəfər (0,1);

5. Slavyanlar – 15937 nəfər (1,92);

6. Ermənilər – 441000 nəfər (53,16);

7. Başqaları – 6342 nəfər (0,76).

1897-ci il siyahıyaalmasına görə İrəvan quberniyasında 190097 kişi, 162254 qadın müsəlman, cəmisi 352354 nəfər müsəlman qeydə alınmışdı.[26] "Çox güman ki, 1897-ci ildə İrəvan quberniyasında 100 min nəfər "Yeni" müsəlman 1893-cü ildə statistiklər tərəfindən əhatə olunmamış "müsəlmanməzhəbli" köçərilər hesabına meydana çıxmışdır. Müsəlmanlar İrəvan quberniyası əhalisinin təxminən 41%-ni (36,7% şiə – 4,3 % sünni) təşkil edirdilər.[27]

1897-ci il əhali sayının yekun nəticələrinə görə quberniyada 829556 nəfər əhali (bundan 92323 nəfəri səhər əhalisi idi) yaşayırdı. Ən çoxsaylı şəhər əhalisi Aleksandropolda (30616 nəfər) və İrəvan da (29006 nəfər) idi.

Bütün quberniya üzrə

- Ermənilər – 441000 (53,21%)
- Azərbaycanlılar – 313176 (37,75%)
- Kürdlər – 49389 (5,9 %)
- Ruslar – 15937 (2,1%)

Ermənilər Aleksandropol (85,5%), Novobəyazid (66,3%) və Eçmiədzin qəzalarında (62,4%) üstünlük təşkil edirlər. Qalan qəzalarda üstünlük azərbaycanlılara məxsusdur.

Sürməli qəzasında azərbaycanlılar (46,5%) və ermənilərdən (30,4%) başqa çoxlu kürd (21,4%) var.

Qəzalar üzrə əhalinin milli tərkibi belə idi.

---

[26] D.YU.Arapov, *Islam v Rossiyskiy imperii,* Zakonodatel'nyye akty, opisaniya, statistika.Sost. Moskva 2005, s. 326.

[27] D.Y. Arapov, *a.g.e.,* s. 104; cyberleninka.ru/article/n/musulmanskoe-naselenie-erivanskoy-qubernii-v-1893-g; Entz. F.A.Brockhaus və I.R.Ephron tərəfindən lüğət. Sankt-Peterburq 1894, s.41, s. 12.

| | Kv.verst | | % | % | % | % | % |
|---|---|---|---|---|---|---|---|
| **Qəzalar** | **əhali** | **ərazi** | **Azərbaycanlı** | **Erməni** | **Kürd** | **rus** | **Digərləri** |
| Aleksandropol | 165503 | 3303,7 | 4,7 | 85,5 | 3 | 3,4 | |
| Naxçıvan | 100771 | 3858,8 | 63,7 | 34,4 | – | – | |
| Novobəyazid | 122,573 | 4156,8 | 28,3 | 66,3 | 2,4 | 2,2 | |
| Sürməli | 89,055 | 3241,0 | 46,5 | 30,4 | 21,4 | – | |
| Şərur-Dərələyəz | 76,538 | 2611,8 | 67,4 | 27,1 | 4,9 | – | |
| İrəvan | 150879 | 2664,2 | 57,4 | 38,5 | 5,4 | 2,0 | 1,5 |
| Eçmiədzin | 124, 237 | 3390,1 | 29,0 | 62,4 | 7,8 | – | |
| Quberniya üzrə | | | 37,8 | 53,2 | 6 | 1,6 | |

XIX-XX əsrlərin kəsişməsində İrəvan quberniyası yenə də 7 qəzaya, qəzalar polis sahələrinə, sonuncular kənd cəmiyyətlərinə, bunlar isə kəndlər bölümüdü:

- İrəvan qəzası (ərazisi 2784,2 kv. verst və ya 3168 km$^2$) dörd polis sahəsinə:

1. Tecirabad (Tacirabad sahəsi) – mərkəzi İrəvan şəhəri idi: ərazisində 5 kənd cəmiyyəti, 59 kənd vardı.

2. Hacı Elyaslı sahəsi (mərkəzi Kələli kəndi idi). – 5 kənd cəmiyyəti, 40 kənddən ibarət idi.

3. Qəmərli sahəsi – mərkəzi Qəmərli kəndi idi. 6 kənd cəmiyyəti, 48 kənddən ibarət idi.

4. Dəvəli sahəsi – mərkəzi eyniadlı kənd olan bu polis sahəsinin 8 kənd cəmiyyəti 58 kəndi birləşdirirdi.

Bütövlükdə qəza üzrə 24 kənd cəmiyyətində 205 kənd birləşmişdi.

Ərazisi 3461 kv. verst və ya 3939 km$^2$ olan bu qəzanın 27 kənd cəmiyyətində birləşmiş 161 kəndi 4 polis sahəsinə bölünmüşdü:

1. Ağbulaq sahəsi (mərk. Ağbulaq kəndi) – 6 kənd cəmiyyəti, 49 kənd.
2. Çıxışlar (Aleksandropol E.) – 5 kənd cəmiyyəti, 43 kənd.
3. Xorom (Xorom k.) – 6 kənd cəmiyyəti, 38 kənd.
4. Böyük Qarakilsə – 11 kənd cəmiyyəti, 31 kənd.

Tərkibində 2 şəhər olan, 4098,41 kv. verstlik və ya 4664,14 km$^2$-lik ərazisində 28 kənd cəmiyyətinin 169 kəndini birləşdirən Naxçıvan qəzası da 4 polis sahəsinə bölünmüşdü:

1. Əliabad (mərkəzi Naxçıvan şəhəri) – 6 kənd cəmiyyəti, 34 kənd.
2. Cəhri (Cəhri kəndi) – 4 kənd cəmiyyəti, 42 kənd.

3. Əbrəqunis (Əbrəqunis kəndi) – 4 kənd cəmiyyəti, 38 kənd.

4. Yuxarı Əylisli (Ordubad şəhəri) – 14 kənd cəmiyyəti, 55 kənd.

Novobəyazid qəzasının ərazisi 5439 kv. verst və ya 6196 $km^2$ idi. 16 kənd cəmiyyətində birləşdirilmiş 128 kənddən ibarət olan bu qəzada 4 polis sahəsinə bölünürdü:

1. Dərəçiçək (mərkəzi Karvansaray kəndi) – 8 kənd cəmiyyəti, 50 kənd.

2. Göyçə (Eranoc) – 3 kənd cəmiyyəti, 24 kənd.

3. Gözəldərə (Kolanıqıran) – 2 kənd cəmiyyəti, 35 kənd.

4. Mərzə (Böyük Mərzə) – 2 kənd cəmiyyəti, 19 kənd.

Sürməli qəzası isə üç polis sahəsinə bölünmüşdü. Ərazisi 3220 kv. verst (3664,5 $km^2$) olan bu qəzadakı 9 kənd cəmiyyəti 228 kəndi birləşdirirdi.

1. İğdır (mərkəzi İğdır) – 3 kənd cəmiyyəti, 61 kənd;

2. Daşburun (Daşburun) – 3 kənd cəmiyyəti, 62 kənd;

3. Qulp (Qulp) – 3 kənd cəmiyyəti, 105 kənd.

Ərazisi 2699,32 kv. verst (3071,25 $km^2$) olan Şərur-Dərələyəz qəzasındakı 15 kənd cəmiyyəti 161 kəndi birləşdirdi. Bu qəzada cəmi 2 polis sahəsi var idi.

1. Şərur (mərkəz. Baş Novasel kəndi) – 8 kənd cəmiyyəti, 62 kənd;

2. Dərələyəz ( Keşişkənd kəndi) – 7 kənd cəmiyyəti, 99 kənd.

Quberniyanın Üçmiədzin qəzasının ərazisi 3308 kv. verst (3770 $km^2$) idi. Buradakı 30 kənd cəmiyyəti (215 kənd) aşağıda adları çəkilən 4 polis sahəsinə bölünmüşdü:

1. Sərdarabad (mərkəz Sərdarabad kəndi) – 11 kənd cəmiyyəti, 97 kənd;

2. Vaqarşapat (Vaqarşapat) – 9 kənd cəmiyyəti, 40 kənd;

3. Əştərək (Əştərək kəndi) – 6 kənd cəmiyyəti, 44 kənd;

4. Baş Abaran (Əliqoçaq kəndi) – 4 kənd cəmiyyəti, 34 kənd.

Aleksandropol qəzası hələ 1840-cı ildə Gürcüstan İmeretiya quberniyasının tərkibində yaranmış, 1846-cı ildə Tiflis, 1849-cu ildə İrəvan quberniyasının tərkibinə verilmişdir. Ərazisi 3759,8 $km^2$, əhalisi 165503 nəfər (1897-ci il) idi.

1913-cü ildə qəzada 22 kənd cəmiyyəti var idi.[28] 1917-ci ildə qəza 7 sahəyə bölündü: 1. Ağbaba (mərkəz Amasiya kəndi); 2. Hacı Xalid; 3. Düzkənd; 4. Qartarlı; 5. Qayğılı Qazancı; 6. Molla Göyçə; 7. Talın.

Sürməli qəzası – ərazisi 3241 kv. Verst, əhali 89055 (1897) nəfər idi.1913-cü ildə 13 kənd cəmiyyətinə bölünürdü.

Novobəyazid qəzası – ərazisi – 4156,8 kv. Verst – əhalisi – 122573 (1897) nəfər

---

[28] *Volostnyya, stanichnyya, sel'skiya, gminnyya pravleniya i upravleniya, a takzhe politseyskiye stany vsey Rossii s oboznacheniyem mesta ikh nakhozhdeniya.* –: izd. T-va Leningrad:-Moskva: Fish, Kiyev 1913, s. 94.

idi.1896-cı ildə qəzada 112111 nəfər əhali yaşayırdı; azərbaycanlılar – 28,5%, – ermənilər – 66,4 %, – ruslar – 2,5 %, – kürdlər isə – 2,4 % təşkil edirdilər.1897-ci ildə 122573 nəfər əhalisi var idi. – ermənilər – 81285 nəfər, –azərbaycanlılar – 34726 nəfər idi.1913-cü ildə 16 kənd cəmiyyətinə bölünürdü.

1900-cü ilin məlumatlarına görə İrəvan quberniyasına həqiqi dövlət müşaviri V.F.Tizenhanzen başçılıq edirdi. Onun dəftərxanasında artıq bəzi azərbaycanlı əyanların adlarına rast gəlinir. Bunlar xüsusi tapşırıqlar üzrə böyük məmur, saray müşaviri Əhməd xan Süleyman xan oğlu Makinski, kiçik məmur titullu müşavir Möhbalı xan İrəvanski və dilmanc, kollegiya katibi Əli bəy Sultanov idi. [29]

Quberniyada rəhbərlik quberniya idarəsi vasitəsi ilə həyata keçirilirdi Bu idarədə tikinti, tibb və b. şöbələr var idi.Quberniya idarələri içərisində şəhər işləri, kəndli işləri üzrə idarələr, statistika komitəsi hərbi mükəlləfiyyət üzrə idarə, həbsxanalara hamilik və s. var idi.[30]

Elə buradaca qəzaların polis sahələrinə bölgüsü haqqında bir qədər fərqli məlumatlara rast gəlinir. Belə ki, İrəvan qəzasının bölündüyü 4 polis sahəsinin mərkəzləri kimi Kənəkir, Ağahəmzəli, Qəmərli və Dəvəli kəndləri, Aleksandropol qəzasının 4 polis sahəsinin mərkəzləri kimi Baş Qarakilsə, Kattarlı Aleksandropol və Xorom, Naxçıvan qəzasının 4 polis sahəsi üzrə Naxçıvan, Əbrəqunis, Cəhri və Ordubad, Novobəyazid qəzasını 4 polis sahəsi üzrə Aşağı Axtı, Yelenovka, Aşağı Karaqluk (?-H.H.) və Basarkeçər kəndi göstərilmişdir. Eçmiədzin qəzası üzrə ancaq 1-ci polis sahəsinin mərkəzinin adı (Vaqarşapat) çəkilmiş, qalan 3 polis sahə mərkəzləri göstərilmişdi.

Sürməli qəzasının 3 polis sahəsinin mərkəzləri Daşburun, İğdır və Qulp kəndləri idi. Sonuncu sahənin polis pristavı vəzifəsini müvəqqəti olaraq Rəşid xan Makinski yerinə yetirirdi.

Şərur-Dərələyəz qəzasının 2 polis sahəsinin mərkəzlərə Baş Noraşen və Keşişkənd kəndləri idi.[31] Polis sahələrinə və iri şəhərlərin bölündükləri sahələr pristavlar başçılıq edirdilər.

İrəvan şəhər ictimai idarəsinin başçısı, şəhər qlavası İ.K.Məlikağamalov idi. Upravanın 7 üzvünün hamısı, habelə 3 nəfər kargüzarın hamısı erməni idi.Upravanın 5 icraçı məmuru içərisində bircə nəfər azərbaycanlı var idi. bazar baxıcısı, kiçik məmur Məmməd bəy Vəzirov.[32] Şəhər dumasının 56 qlasnısı-deputatı içərisində cəmisi 3 nəfər (Qazıyev Mirzə

---

[29] *Kavkazskiy kalendar' na 1901 god,* otd. III, s. 205-206.
[30] Yenə orada, s. 207-208.
[31] *Kavkazskiy kalendar' na 1901 god,* otd. III, s. 209-214.
[32] Yenə orada.

Cabbar, Mirbabayev Mirabbas, Pənah xan Makinski) azərbaycanlı var idi.[**]

1917-ci il üçün hazırlanmış “Qafqaz təqvimi”nin materiallarına görə,[33] İrəvan quberniyasının 7 qəzaya bölünməsi qalmaqda idi.

İrəvan qəzası yenə də 4 polis sahəsinə bölünürdü. Kənəkir, Ağahəmzəli, Qəmərli və Dəvəli kəndləri müvafiq olaraq 1-4-cü polis sahələrin mərkəzləri idi. Bu sahələrin 1-cisində 4, 2-cisində 6, 3-cüsündə 6 və 4-cüsündə 7 kənd icması var idi.

Eçmiədzin qəzası da 4 polis sahəsinə bölünürdü. Bu sahələrin mərkəzləri Vaqarşapat (I sahə, 7 kənd icması), Əştərək (II; 9), Kurduqulu (III, 4) və Talın (IV; 4) kəndləri idi.

Aleksandropol qəzasının bölündüyü polis sahəsinin mərkəzləri Böyük Qarakilsə kəndi (I; 7), Kattarlı kəndi (II; 5), Aleksandropol şəhəri (III; 5) və Aqin (?-H.H.) kəndi (IV; 5) idi.

Naxçıvan qəzasının 4 polis sahəsinin mərkəzləri müvafiq olaraq Naxçıvan şəhəri (5 kənd icması daxil idi), Cəhri (42, Əbrəqunis kəndləri (6) və Ordubad (7) şəhəri idi.

Novobəyazid qəzasının bölündüyü 4 polis sahəsinin mərkəzləri isə müvafiq olaraq Aşağı Axtı (6 kənd cəmiyyəti), Yelenovka (3), Aşağı Qaranlıq (3) və Basarkeçər (4) kəndləri idi.

Sürməli qəzası isə 3 polis sahəsinə bölünmüşdü. Bu sahələrin mərkəzləri müvafiq olaraq İğdır (4 kənd cəmiyyəti daxil idi), Daşburun (3) və Qulp (6) kəndləri idi.

Nəhayət, Şərur-Dərələyəz qəzasının bölündüyü 2 polis sahəsinin mərkəzləri müvafiq olaraq Baş Noraşen (12 kənd cəmiyyəti) və Keşişkənd (7) kəndləri idi.

Qəza administrasiyalarının verdikləri məlumata görə,[34] 1916-cı il yanvarın 8-də İrəvan quberniyasının 7 qəzasında cəmisi 1.120242 nəfər əhali yaşayırdı ki, bunun 364635 nəfəri (32,55%) azərbaycanlıların payına düşürdü. Bütövlükdə quberniya müsəlmanlarının sayı 401259 nəfərə (35,81%) bərabər idi. Müxtəlif proseslərin nəticəsində quberniyada ermənilərin sayı 669,871 nəfərə çatmışdı. Ermənilərin içərisində müvəqqəti məskunlaşanların sayı kifayət qədər yüksək (78306 nəfər) idi – təxm. 12%. Halbuki, azərbaycanlılar içərisində belələrin sayı (9596) və xüsusi çəkisi (2,63%)[*] kifayət qədər aşağı idi.

---

[**] Yenə orada, s. 213-216.
[33] Yenə orada, s. 213-216.
[34] *Kavkazskiy kalendar' na 1917 god,* Tiflis 1916, otd. statisticheskiy, s. 12, 216-219.
[*] Hesablamalar bizimdir – H.H.

**Nəticə**

Çox təəssüf ki, çarizmin devrilməsi və Rusiyada bolşevik dövlət çevrilişi dövründə Cənubi Qafqazda getmiş mürəkkəb ictimai-siyasi hərbi proseslərin nəticəsində Qərbi Azərbaycan torpaqlarının xeyli hissəsini təşkil edən İrəvan diyarımız qəvi düşmənlərimizin əlinə keçdi və onlar əzəli türk yurdunda özlərinə Ararat Respublikası yaratdılar və beləliklə də xalqımıza və dövlətimizə qarşı barışmaz düşmənçilik mövqeyi tutan qüvvələr bizim torpaqlarda bizə qarşı möhkəm dayaq nöqtəsi əldə etdilər və havadarlarının yaxından köməyi ilə qısa müddətdə özlərinin cəmisi 9 min $km^2$-lik ərazilərini bizim torpaqlar hesabına 30000 $km^2$-ə çatdırdılar, ötən əsrin sonlarında isə Azərbaycan Respublikasının ərazisinin daha 20%-ni qəsb etdilər.

Amma ötən ilin 44 günlük zəfər yürüşümüz nəticəsində "dəmir yumruq" təcavüzkarları darmadağın edib ərazi bütövlüyümüzü bərpa etdi, ədalətzəfər çaldı, doğma torpaqlarımıza qayıtdıq. Şübhə yoxdur ki, biz, Müzəffər Prezidentimizin dediyi kimi, bütün torpaqlarımıza qayıdacağıq və oralarda əbədilik yaşayacağıq.

### Ədəbiyyat

ARAPOV, D.YU., *Musul'manskoye naseleniye Erivanskoy gubernii v 1893 god.* Po materialam Natsional'nogo Arkhiva Armenii, Vostochnyy Arkhiv, 2007, №16, s.103-104.

…………….*Islam v Rossiyskiy imperii,* Zakonodatel'nyye akty, opisaniya, statistika, Sost. Moskva 2005.

cyberleninka.ru/article/n/musulmanskoe-naselenie-erivanskoy-qubernii-v-1893-g;Entz. F.A.Brockhaus və I.R.Ephron tərəfindən lüğət, Sankt-Peterburq: 1894, c.41, s.12.

*Kavkazskiy kalendar' na 1862 god.* Tiflis, izdannyy pri Glavnom Upravlenii Namestnika Kavkazskogo. XVII god. Tiflis Tipografiya, Glav.Upr., Nam. Kav., Tiflis 1861.

*Kavkazskiy kalendar' na 1901 god,* otd.

*Kavkazskiy kalendar' na 1901 god,* otd.

*Kavkazskiy kalendar' na 1917 god,* Tiflis 1916, otd. Statisticheskiy.

*Natsional'nyy arkhiv Armenii,* f.94, op.1, d.2020, l.18.

ORLOVSKIY, K., *Statisticheskiy ocherk chetyrokh uyezdov Erivanskoy gubernii, byvshey Armyanskoy oblasti, preimushchestvenno v khozyaystvennom otnoshenii,* Kavkazskiy kalendar' na 1851 god. otd. IV, Tiflis 1850.

*Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii 1897 goda.*

*Pervaya vseobshchaya perepis' naseleniya Rossiyskoy imperii, 1897,* t. LXXI. Erivanskaya guberniya, Sankt-Peterburg 1905, s.1.

*Polnoye Sobraniye Zakonov Rossiyskoy Imperii (PSZRI),* Kavkazskiy kalendar' na Sobraniye vtoroye, t. XXIV, otdeleniye pervoye, 1849, ot №22881-23429, v tipografii otdeleniya sobstvennoy Ye.I.V. Kantselyarii, Sankt-Peterburg 1850, dok. №23303, s. 311-312.

*PSZRI,* otdeleniye II, ot №23480-23786, dok. №-23303, s. 140.

*Svod statisticheskikh dannykh o naselenii Zakavkazskogo kraya, izvlechennykh iz posemeynykh spiskov 1886 g. Izdan po rasporyazheniyu Glavnonachal'stvuyushchego grazhdanskuyu chastiyu na Kavkaze,* Zakavkazskim statisticheskim komitetom, Tipografiya I.Martirosantsa, Orbel.ul., d. №1,2, Tiflis 1893 B.s.

*Volostnyya, stanichnyya, sel'skiya, gminnyya pravleniya i upravleniya, a takzhe politseyskiye stany vsey Rossii s oboznacheniyem mesta ikh nakhozhdeniya,* izd. T-va Leningrad: Moskva: Fish, Kiyev 1913, s. 94.